

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 8 (20.909)

16 yanvar 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfərə gəlmişdir.

* * *

Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filip Lefort ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Naxçıvanın üçüncü intibahı dövründə muxtariyyətin dördüncü ali təntənəsi

On səkkiz ildir ki, Naxçıvan tarixinin üçüncü intibah dövrünü yaşayırıq. Bu intibah dövrü müstəqil Azərbaycanın 1993-cü ildən başlayan inkişafının və tərəqqisinin, intibahının ayrılmaz tərkib hissəsidir. Onun xarakterik xüsusiyyətləri isə Naxçıvanın Azərbaycanın əsas hissəsindən ayrı düşməsinə baxmayaraq, ümummilli inkişaf proseslərindən bəhrələnməsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsasları müəyyənləşdirilən və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla inkişaf etdirilən inkişafın Naxçıvan modelinin əsas uğuru blokada şəraitində, ölkənin əsas ərazisi ilə birbaşa əlaqənin olmadığı şəraitdə belə, inkişafı təmin etməsi, eyni zamanda inkişafın sistemli xarakter daşıması və sürətli təkamül yolu ilə getməsindədir. Blokada şəraitində – iqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunması, istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işləri, sosial problemlərin həlli və ən əsası əhalinin güzəranının yaxşılaşdırılması inkişafın Naxçıvan modelinin xarakterik xüsusiyyətləridir. Məhz bütün bunlar – iqtisadi sahə ilə yanaşı, ictimai həyatın bütün sahələrində



gedən kompleks inkişaf prosesləri tariximizin ən yeni dövrünü məhz Naxçıvan tarixinin üçüncü intibah dövrü adlandırmağımıza imkan verir.

Yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam təkcə tarixi yubileyin təntənəli qeyd olunması ilə bağlı rəsmi dövlət sənədi deyil, həm də naxçıvanlıların milli istiqlal ideyalarına bağlılığına, Naxçıvanda həyata keçirilən işlərə, intibah proseslərinə verilən layiqli qiymətdir.

Sərəncamdan sitat gətirdiyimiz bu fikir həmin qiymətin nə qədər böyük olduğunun təzahürüdür: ***“Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir”.***

Qeyd edək ki, müstəqil Azərbaycanın tarixində Naxçıvan Muxtar Respublikasının yubileyinin keçirilməsi ilə bağlı ilk dəfə 1999-cu il fevral ayının 12-də xalqımızın ümummilli lideri Heydər Əliyev fərman verib. Bu fərman gələcək yubileylərin qeyd edilməsi haqqında veriləcək bütün tarixi-siyasi sənədlər və qərarlar üçün istinad nöqtəsi olmaqla, muxtariyyətin yubileylər tarixinin ən ali sənədidir. Çünki onun altında bütün dövrlərin ən böyük azərbaycanlısının – Heydər Əliyevin imzası var.

Cənab Prezident İlham Əliyev isə Naxçıvanın 90 illik yubileyi ilə bağlı sərəncamı da imzalamaqla həm də Naxçıvan Muxtar Respublikasının yubileylərinin keçirilməsi haqqında ən çox sərəncam imzalayan Prezident kimi tarixə düşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muxtar respublikanın yubileyinin keçirilməsi ilə bağlı ilk sərəncamı 2009-cu ilin 9 fevralında Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi ilə əlaqədar olaraq imzalayıb. “Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında” 6 fevral 2009-cu ildə imzalanan Prezident Sərəncamının altında da məhz dövlət başçısı cənab İlham Əliyevin imzası var. Naxçıvanın üçüncü intibahı dövründə muxtariyyətin dördüncü ali təntənəsinin qeyd olunmasını da məhz cənab İlham Əliyevin imzası təsdiq etdi.

***Mübarək muxtariyyətin mübarək, Naxçıvan!***

Elnur KƏLBİZADƏ

# “Muxtariyyət ili”ndə qarşıda mühüm vəzifələr durur

## *Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclasından qeydlər*

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının növbəti şura iclası keçirilmişdir. İclasda rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilmişdir.***

Bildirilmişdir ki, 2013-cü ildə muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin olunmuş, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Ötən ilin əvvəlindən həyata keçirilmiş məqsədyönlü islahatların nəticəsidir ki, 2013-cü ildə muxtar respublika üzrə Ümumi Daxili Məhsul istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artaraq 2 milyard 337 milyon manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi də 2012-ci illə müqayisədə 9 faiz artaraq 5 min 420 manata çatmışdır. Bütün bu uğurlar Heydər Əliyev quruculuq xəttinin ardıcıllıqla davam etdirilməsi hesabına əldə olunmuşdur və fərəhli haldır ki, bu uğurların qazanılmasında Yeni Azərbaycan Partiyası üzvlərinin müstəsna xidməti və rolu vardır.

Vurğulanmışdır ki, 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi qeyd olunacaq. Bu münasibətlə 2014-cü il muxtar respublikada “Muxtariyyət ili” elan olunmuşdur. Təbii ki, muxtar respublikanın yubileyi ilində də iqtisadiyyatın dinamik inkişafı davam etdiriləcək, qarşıya qoyulan vəzifələr uğurla icra olunacaq, Azərbaycan tarixinin bir qolu olan Naxçıvan tarixinin və mədəniyyətinin öyrənilməsi sahəsində fəaliyyət daha da güclənəcəkdir.

Əmir Babayev Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının ötən ildəki fəaliyyətindən danışaraq nəzərə çatdırmışdır ki, rayon təşkilatı 1 konfrans, 4 şura, 11 idarə heyəti yığıncağı keçirmiş, eyni zamanda əlamətdar günlərlə əlaqədar ardıcıl olaraq bir sıra tədbirlər təşkil etmişdir. Xüsusilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyi münasibətilə “Heydər Əliyev ili”ndə rayonda tədbirlər planına uyğun olaraq müxtəlif tədbirlər həyata keçirilmişdir. Belə ki, “Heydər Əliyev lektoriyası”nın məşğələləri, dəyirmi masalar, yaradıcı gənclərin əl işlərindən ibarət sərgilər, müxtəlif səpgidə idman yarışları yaddaqalan olmuşdur.

2013-cü ildə həmçinin ölkəmizdə prezident seçkiləri keçirilmiş və partiyamızın sədri cənab İlham Əliyev növbəti möhtəşəm qələbəsini qazanmışdır. Bu sahədə də rayon təşkilatı öz işini Seçki Məcəlləsinə uyğun quraraq seçki ilə bağlı qarşıda duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak etmişdir.

Bildirilmişdir ki, hazırda Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibində 162 ilk partiya təşkilatı fəaliyyət göstərir. Bunların 63-ü kənd ərazi ilk təşkilatı, 64-ü məktəb, 35-i isə idarə və müəssisə ilk təşkilatlarıdır. Təşkilatın uçotunda 10 min 542 nəfər partiya üzvü vardır ki, bunların 2 min 871 nəfərini, yəni 27 faizini qadınlar, 3 min 804 nəfərini, yəni 36 faizini gənclər təşkil edir. Ötən il ərzində Yeni Azərbaycan Partiyası sıralarına 131 nəfər qəbul olunmuşdur. Bunların 60 nəfərini qadınlar, 104 nəfərini isə gənclər təşkil edir.

Əmir Babayev dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında “Muxtariyyət ili” elan olunmuş 2014-cü ildə qarşıda duran vəzifələrdən də söhbət açmış, qeyd etmişdir ki, əsas işimiz əhali arasında ideya-siyasi işi daha da gücləndirmək, partiya üzvlərinə təmsil etdiyi təşkilatın işində fəal olmağı aşılamaqdan ibarət olmalıdır. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir partiya üzvü partiyanın Proqram və Nizamnamə tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, “Muxtariyyət ili”ndə rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində daha fəal olmalıdır.

Yığıncaqda Şərur şəhər ərazi ilk partiya təşkilatının sədri Ramiz İmanov, Tumaslı kənd ərazi ilk partiya təşkilatının sədri Ramil Həsənzadə, rayon Elektrik Şəbəkəsi ilk partiya təşkilatının sədr müavini Eldəniz Əlizadə, Aşağı Aralıq kənd ərazi ilk partiya təşkilatının sədri Cəfər Muxtarov çıxış etmişlər.

Şura iclasında “Muxtariyyət ili” ilə bağlı Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tədbirlər planı təsdiq olunmuşdur.

Cəfər ƏLİYEV

# Sənaye muxtar respublika iqtisadiyyatının lokomotividir

Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafında son illərdə əldə edilmiş müsbət nəticələrin bir hissəsini də sənayeləşmə tutur. Yerli xammaldan səmərəli istifadəyə əsaslanan yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması və bu müəssisələrin ildən-ilə sayının artırılması Ümumi Daxili Məhsul istehsalında da müsbət nəticələrin artan xətt üzrə dinamikasını təmin etmişdir. 2013-cü ildə sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, istehsalın həcmi 2012-ci illə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 93 faizə qədəri, yaxud 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür. Yeni sənaye müəssisələrinin yaradılmasında müasir texnologiyaların tətbiqi daxili tələbatı yüksəkkeyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bunun nəticəsidir ki, 2013-cü ildə 241 milyon manatlıq sənaye məhsulu ixrac edilmişdir.

Naxçıvan Muxtar Respublikasında əlverişli investisiya mühitinin formalaşması, sənaye məhsulu istehsalına yönəlmiş kiçik və orta sahibkarlıq subyektlərinin dövlət qayğısı ilə hərtərəfli təmin olunması 2014-cü ilə – ölkəmizdə elan edilmiş “Sənaye ili”nə daha böyük töhfələr verəcək.

Səbuhi HƏSƏNOV

# Dövlət Proqramı Babək rayonunda da uğurla icra olunur

***Meyvə-tərəvəzçilik iqtisadi səmərəlilik baxımından mühüm əhəmiyyətə malikdir. Muxtar respublikamızın torpaq-iqlim şəraiti bol meyvə və tərəvəz yetişdirilməsi üçün olduqca əlverişlidir. Bu gün də muxtar respublikada bu sahə diqqət mərkəzində saxlanılır, məhsul istehsalını artırmaq üçün kompleks tədbirlər görülür. Bu məqsədlə indiyə qədər mühüm qərarlar qəbul olunaraq onların icrası təmin edilib. İnsanlarda xüsusi mülkiyyətə münasibətin köklü dəyişməsi, fərdi sahibkarlıq fəaliyyətinin üstün istiqamət alması, öz növbəsində, muxtar respublikada il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin artmasına da təsir edib.***

Əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının daha dolğun ödənilməsi məqsədilə muxtar respublikada soyuducu anbarlar qurularaq istifadəyə verilib, meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilib. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarda rəqabətqabiliyyətli məhsul satmaq üçün məhsulun çeşidlənməsi, qablaşdırılması, saxlanması, istehsalı kimi ixraca stimul yaradan tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Muxtar respublikanın düzən, dağətəyi və dağlıq ərazilərində kartof, pomidor, sarımsaq, soğan, yerkökü və digər tərəvəzlərin, yerli iqlim və relyefə uyğun tezyetişən meyvə sortlarının becərilməsi, meyvə-tərəvəzçiliyin sənaye miqyasında inkişaf etdirilməsi üçün əlverişli ekoloji mühit mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada hazırkı dövrdə əhalinin artan tələbatına uyğun olaraq, meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı üçün qəbul edilmiş mühüm dövlət sənədidir. Proqramda muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının stimullaşdırılması, 2015-ci ildə ümumi meyvə istehsalını 45 min tona çatdırmaq bir vəzifə olaraq qarşıya qoyulub. Bu məqsədə nail olmaq üçün intensiv texnologiyaya əsaslanan yüksəkkeyfiyyətli və məhsuldar sortlardan ibarət meyvə bağlarının salınması, unudulmuş aborigen sortların bərpası, tərəvəz əkini sahələrinin genişləndirilməsi və məhsul artımına nail olunması, yabanı meyvə-tərəvəz bitkilərindən istifadə imkanlarının müəyyənləşdirilməsi, meyvə və tərəvəzçiliyin genişləndirilməsi zamanı müasir texnologiyanın tətbiqi, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz giləmeyvə, meyvə və tərəvəz məhsulları ilə təmin edilməsi üçün anbar şəbəkələrinin və saxlama soyuducu kameraların yaradılması, daxili bazarın qorunması, meyvə-tərəvəz məhsullarının tədricən idxalının azaldılması və ixracının təşkili, yeni, müasir istehsal müəssisələrinin yaradılması kimi mühüm tədbirlərin həyata keçirilməsi planlaşdırılıb.

Sözügedən Dövlət Proqramının icra vəziyyəti ilə bağlı meyvə-tərəvəzçiliyin inkişafında böyük imkanlara malik olan Babək rayonunda olduq, bu sahədə həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat aldıq. Rayon İcra Hakimiyyəti başçısının aqrar məsələlər üzrə müavini Abbas Əliyev bildirdi ki, rayon ərazisində torpaq-iqlim şəraitinə uyğunlaşan meyvə sortlarının yetişdirilməsi üçün Babək qəsəbəsində ötən il əkilən 1200 kvadratmetrlik tingçilik sahəsinə aqrotexniki qulluq göstərilib. Əlavə olaraq 4 min ədəd dibçəklər vasitəsilə ting yetişdirilib. Yetişdirilən tinglər yeni salınan meyvə bağlarına əkilib. Torpaqların münbitliyinin yaxşılaşdırılması, şoran, şorakət və eroziyaya uğramış torpaqların əkin dövriyyəsinə qaytarılmasının elmi əsaslarının hazırlanması və tətbiqi sahəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri, muxtar respublika Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin müvafiq institutları ilə uğurlu əməkdaşlıq edilib. Belə ki, rayonun Nehrəm kəndində 450 metr qapalı drenaj, 3600 metr açıq drenaj kanalı lil və yığıntılardan təmizlənib. Həmçinin Nehrəm kəndində şoranlaşmanın qarşısını almaq məqsədilə 1100 metr, Nəcəfalı Dizə kəndində isə 1950 metr yeni açıq drenaj kanalları qazılıb, müxtəlifdiametrli borularla su keçidləri quraşdırılıb. Bu iş hazırda davam etdirilir. Bundan başqa, rayonun Sirab kəndində 450 metr uzunluğunda qapalı drenaj tikilib, Cəhri kəndində sakinlərin həyətində 270 metr yeni qapalı drenaj xətti, kənd məhəllələrində isə 600 metr açıq drenaj kanalı qazılıb. Dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan əkinəyararlı torpaq sahələrində meyvə və tərəvəzlərin əkilməsinin əkin atlaslarına uyğun təşkil edilməsi məqsədilə rayonun torpaq mülkiyyətçilərinin iştirakı ilə seminar-müşavirələr keçirilib, maarifləndirmə işləri aparılıb. Rayon ərazisində 37 hektarda əkin atlasına uyğun meyvə bağı salınıb, 1498 hektar sahədə bostan, 1931 hektar sahədə isə tərəvəz əkini keçirilib. Muxtar respublikada özünəməxsus ənənələrə malik olan taxıl bitkisinin, kartof, pomidor, sarımsaq, soğan, yerkökü və digər tərəvəzlərin əkin sahələrinin artırılmasının dəstəklənməsi istiqamətində ötən il ərzində 339 nəfərə kreditlər verilib. Rayon ərazisində yerli iqlim və relyefə uyğun tezyetişən meyvə bağları salınması istiqamətində işlər aparılıb. Meyvə bağlarının salınması üçün sututarlara yaxın ərazilərin və çay vadilərində istifadə olunmayan torpaqların müəyyənləşdirilib əkin dövriyyəsinə daxil edilməsi məqsədilə lazımi tədbirlər həyata keçirilib. Sututan ərazilərdən 10 hektarı əkin dövriyyəsinə daxil edilib.

Abbas Əliyev onu da bildirdi ki, ötən il rayon ərazisində meyvə və tərəvəzçiliklə məşğul olan torpaq mülkiyyətçilərinin iştirakı ilə rayonun Cəhri, Nehrəm, Şıxmahmud, Sirab və Zeynəddin kəndlərində maarifləndirici tədbirlər keçirilib. Bu tədbirlərdə aidiyyəti qurumların nümayəndələrinin iştirakı təmin olunub, mülkiyyətçilərlə söhbətlər aparılıb, torpaqların münbitliyinin artırılması ilə əlaqədar torpaq mülkiyyətçilərinə tövsiyələr verilib. Heydər Əliyev Su Anbarının sol sahil kanalı vasitəsilə suvarılan 2000 hektar ərazidə su itkisinin və şoranlaşmanın qarşısının alınması məqsədilə yeraltı suvarma şəbəkəsinin tikintisi nəzərdə tutulub. Suvarma suyundan səmərəli istifadə olunması, suvarılan torpaq sahələrinin genişləndirilməsi və torpaqların su ilə təminatının yaxşılaşdırılması üçün suvarma kanallarının tikintisi sahəsində aparılan işlərə müvafiq olaraq, ümumi uzunluğu 182,3 kilometr olan kanal və arxlar lildən təmizlənib. Həmçinin əkin sahələrini su ilə təmin edən Nehrəm nasos stansiyasında 1 ədəd yeni nasos aqreqatı, 2 ədəd elektrik mühərriki quraşdırılıb, Yarımca nasos stansiyasında 2 ədəd siyirtmə yenisi ilə əvəz edilib, Sirab nasos stansiyasının təzyiqli boru xəttinə metal borularla 1300 metr yeni xətt çəkilib. Güznüt kəndi ərazisində 5500 metr uzunluğunda yeni suvarma boru xəttinin tikintisinə başlanılıb. Nehrəm kəndində əkin sahələrinin suvarma normasını yaxşılaşdırmaq məqsədilə Araz çayından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi məqsədilə əraziyə baxış keçirilib və gələcəkdə nəzərdə tutulan işlərin görülməsi üçün əlaqədar qurumlarla fikir mübadiləsi aparılıb.

İstehsal olunan meyvə-tərəvəz məhsullarının realizə edilməsi üçün sahibkarlar arasında marketinq işinin təbliği, sərgi-satış yarmarkalarının təşkili məqsədilə torpaq mülkiyyətçilərinin sərgi-satış yarmarkalarında iştirakı təmin edilib. Rayon ərazilərində bitki örtüyünün nisbətən seyrək olduğu Pircüvar massivində iqlimləşdirilmiş yeni ərik, alma və armud bağlarının salınmasına diqqət yetirilib.

*Ümumiyyətlə, Babək rayonunda həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, proqramın icra müddəti başa çatana qədər bölgədə meyvə-tərəvəzçilik sahəsində böyük nailiyyətlər əldə ediləcək.*

**Səbuhi HÜSEYNOV**

# Yeni modellərdə avtomobil istehsalına başlanılıb



***Naxçıvan Avtomobil Zavodunun tikintisinə 2008-ci ilin avqust ayında başlanılıb. İstehsal sahəsi, satış salonu, anbar və inzibati binadan ibarət olan zavodun 2472 kvadratmetrlik ərazisində Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb.***

Müəssisədə yığım sexi, anbar, yük boşaldılması üçün platforma, sınaq yolu və sınaq avadanlıqları quraşdırılıb.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə “NAZ-Lifan” markası ilə istehsal olunan avtomobillər baqaj hissəsi salonda olan (xetçbek) “320” və “520İ”, baqaj bölməsi salondan kənarda yerləşən (sedan) “520” və “620” modellərindən ibarətdir. Bu avtomobillər ayrı-ayrı hissələrdən yığılıb sınaq meydançasına çıxarılır. Burada 2011-ci ildə yeni “NAZ-Lifan X-60” modelinin istehsalı üçün konveyer xəttində müəyyən dəyişikliklər aparılıb, 2012-ci ilin yanvar ayından etibarən isə “NAZ-Lifan X-60” modelinin kütləvi istehsalına başlanılıb. Həmçinin müəssisəyə təcrübə-sınaq məqsədilə 2012-ci ilin sonunda kiçik partiyada 6 nəfərlik mikroavtobus və 800 kiloqram yükgötürən avtomobillərin hissələri idxal olunub. Artıq “NAZ-Lifan” markalı 6 nəfərlik mikroavtobusun “LF-6401” modeli, 800 kiloqram yükgötürən furqonlu avtomobilin “LF-5028” modeli və 800 kiloqram yükgötürən bortlu yük avtomobilinin “LF-1022” modeli satışa çıxarılıb. Məqsəd bazarı öyrənmək və gələcəkdə tələbat olarsa, kütləvi istehsala başlamaqdır. Bu istiqamətdə işlər uğurla davam etdirilib, ötən ilin oktyabr ayında “NAZ-Lifan 620” model avtomobillər avtomatik sürət qutusu ilə təchiz edilərək satışa çıxarılıb. Hazırda istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu “NAZ-Lifan” markalı avtomobillərin “330”, “630” və “720” modellərinin ilk nümunələrinin istehsalına başlanılıb ki, bu avtomobillərin də 2014-cü ilin may ayında Bakıda keçiriləcək VIII Beynəlxalq Avtomobil Sərgisində təqdimatı nəzərdə tutulur.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə 5 modeldə “NAZ-Lifan” markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir.



İstehsal olunan avtomobillər Nəzarət şöbəsindən keçdikdən sonra satışa buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal prosesi xarici mütəxəssislər tərəfindən aparılırdısa, hazırda bu iş yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

Avtomobil zavodunun fəaliyyətə başladığı dövrdən ötən 4 il “NAZ-Lifan” markalı minik avtomobillərinin tanıdılması mərhələsi olub. Hazırda istehsal olunan maşınların daha münasib qiymətə istehlakçılara təqdim olunması ilə əlaqədar layihələr hazırlanır. Müəssisədə möhürləmə, qaynaq və boyama sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Bu isə ban hissələrinin sökülü vəziyyətə gətirilməklə müəssisədə qaynaq olunmasına imkan verəcək. Hesablamalara görə, 1 konteynerə orta hesabla 6 avtomobil banı yerləşirsə, sökülü vəziyyətdə 150-200 avtomobil banı yerləşir ki, bu da daşınma xərcinin azalması deməkdir. İstehsal olunan avtomobillərin milliləşdirilməsi planlaşdırılır. Bunun üçün avtomobil hissələrinin 51 faizinin ölkəmizdə istehsal olunması şərtdir. Bu məqsədlə avtomobilin müəyyən hissələrinin ölkəmizdə, o cümlədən Naxçıvanda istehsal edilməsi nəzərdə tutulur.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı işi də yüksək səviyyədə aparılır, Naxçıvan və Bakı şəhərlərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazaları yaradılıb. Yaxın vaxtlarda isə Xaçmaz rayonunda satış mərkəzinin, texniki xidmət şöbələrinin və avtomobillərin ehtiyat hissələrinin satışı mağazasının yaradılması nəzərdə tutulub. Bu, həmin bölgədə və ətraf rayonlarda istismar olunan “NAZ-Lifan” markalı minik avtomobillərinə Bakı şəhərinə aparmadan yerində texniki xidmət göstərilməsinə əlverişli şərait yaradacaq. Mühərrik və sürət qutusuna 40 min kilometr və ya 2 il zəmanət verilən avtomobillərin satışı nağd və ya sərfəli kredit şərtləri ilə aparılır.

Avtomobillərin dəyəri 8400-16000 manat arasında dəyişir. Ötən 4 il müddətində 2085 ədəd “NAZ-Lifan” markalı minik avtomobili istehsal olunub, bunlardan 1903 ədədi satılıb. Bu isə onu göstərir ki, “NAZ-Lifan” markalı minik avtomobilləri maşın bazarında artıq özünəməxsus yerə malikdir. Sevindirici haldır ki, yerli istehsala önəm verilir, Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt, Neftçala, Xaçmaz və Quba şəhərlərində “NAZ-Lifan” markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.



**Kərəm HƏSƏNOV**

***Daxili bazarda quş əti və yumurtaya olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsi tədbirlərinə uyğun olaraq, ötən il 13 yeni quşçuluq təsərrüfatı yaradılıb. Beləliklə, quşçuluq təsərrüfatlarının ümumi sayı 59-a çatdırılıb.***

# Quşçuluq təsərrüfatlarının sayı artır

Xatırladaq ki, muxtar respublikada quşçuluq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək üçün ötən ilin noyabr ayında Naxçıvan Muxtar Respublikası Quşçuluq Birliyi yaradılıb. Birliyin tərkibinə daxil olan müəssisələr muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün öz fəaliyyətlərini genişləndirirlər. Bu məqsədlə birliyə daxil olan broyler məhsulları istehsalçıları bir araya gələrək regionda quş əti və yumurta istehsalı ilə bağlı qarşıda duran məsələləri birgə müzakirə edirlər. Belə görüşlərdə muxtar respublikada fəaliyyət göstərən quşçuluq müəssisələri qarşısında duran cari problemlərə toxunulur, istehsal olunan məhsulun maya dəyəri, satışı, reklamı ilə bağlı məsələlər haqqında fikir mübadiləsi aparılır. Muxtar respublikaya kənardan müxtəlif yollarla gətirilən broyler məhsullarının yerli istehsalçıların işinə yaratdığı çətinliklər, broyler müəssisələrinin damazlıq yumurta və ətlik cücəyə olan tələbatlarının ödənilməsi quş əti istehsalçılarının cari qayğılarından olub, gələcəkdə koordinasiya əlaqələrinin genişləndirilməsi və istehsal olunmuş məhsulların ixracı məsələləri də müzakirə olunan mövzulardandır.

**Xəbərlər şöbəsi**

***Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizlin, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd kəndləri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu. "Torpaq – uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mücadilədə sağlamlığını itirərək öz ev-eşiyinə qayıdanlar da az olmadı. Onlarla igidimiz isə şəhidlik zirvəsinə ucaldı. Belə yurd yerlərindən biri ümummilli liderimiz Heydər Əliyevin "Qeyrət qalası" adlandırdığı Sədərək rayonudur. Burada bir haşiyə çıxaraq deyim ki, "Sədərək" sözünün, naxçıvanlıların düşüncəsində, etimoloji sinonimi "sərhəd" leksik vahididir. Çünki 1988-ci ildən başlanan hadisələr dövründən indiyədək "Sədərək" deyəndə hamımız sərhədlərimizi xatırlamışıq. O sərhədlərimizi ki, Vətənimiz oralardan başlayır.***

# Sədərək bu gün

*Tarixə həkk olunmuş hadisələr və ya yaddaşlarda əbədi yaşayacaq günlərə qısa ekskurs*

Sədərəyin 1990-cı il avqust ayının 28-də muxtar respublikanın inzibati ərazi bölgüsünə rayon kimi daxil olması bölgənin geostrateji mövqeyi ilə bağlı idi.

2002-ci ilin avqust ayında Sədərək əhalisi ilə görüşündə ümummilli liderimiz bunu belə açıqlayacaqdı: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir, mən indi qəsəbəni belə görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir. Vaxtı ilə 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, "bu, bizimdir, o, bizimdir" deyirdilər. Ona görə mən burada o vaxtlar bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar"***.

Sözümüzün əvvəlinə qayıdaraq qeyd etmək yerinə düşər ki, məlum hadisələr başlayandan bir qədər sonra – 1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərəyə hücuma keçiblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. 1990-cı il mart ayının 28-də Ermənistan tərəfdən Sədərəyə 300-ə yaxın top mərmisi atılıb. Bu müddət ərzində ərazidə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati binalar dağıdılıb. Elə o vaxt qədim yurd yerinin müdafiəsi vətənpərvər oğulların üzərinə düşüb. Muxtar respublikanın rayonlarından gələn igid eloğullarımız burada böyük qəhrəmanlıqlar göstəriblər. Həmin illərdə muxtar respublikamızın bütün bölgələrindən, həmçinin ölkəmizin 12 rayonundan Sədərəyə kömək gəlib. Qeyri-bərabər döyüşlərdə 500-ə yaxın adam yaralanıb. 108 nəfər şəhidlik zirvəsinə ucalıb ki, onların 58 nəfəri rayonun yetirmələri idi. Döyüşlərdə qəhrəmanlıq göstərən kapitan Məhərrəm Seyidov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bu statistik rəqəmləri xatırlayanda yenə də ulu öndərin sözləri yada düşür: ***"Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub"***.

Güllə səslərindən qulaq tutulan, həyət-bacaları dağıdılan Sədərəkdə 1993-cü il avqust ayının 13-də axırıncı döyüşdə ermənilər "Qeyrət qalası"nı qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini yəqin edərək yerlərində oturdular. Sədərək belə qorundu. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Bu məqamda istər-istəməz ulu Dədə Qorqudun aforizmə çevrilmiş sözlərini xatırlayırsan: "Torpağı qorumursansa, əkməyinə, əkmirsənsə, qorumağına dəyməz". Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 mart 2000-ci il tarixdə imzaladığı "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" Sərəncamın böyük əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Məhz bu sərəncam sərhəd bölgəsinin öz simasını tamamilə dəyişməsinə səbəb olub. Adıçəkilən sənəd imzalandıqdan sonra onun icrası istiqamətində görülən işlər, həyata keçirilən digər məqsədyönlü tədbirlər Sədərəyi müasir rayona çevirib.

20 Yanvar faciəsinin ildönümü ərəfəsində rayona getməkdə məqsədimiz 24 il bundan əvvələ qayıtmaq, Sədərəyin ağır günlərini görmüş, o dövrü yaşamış insanlarla görüşmək idi. Rayon mərkəzi Heydərabad qəsəbəsində öncə onu düşündüm ki, verəcəyim suallarla bu qədim yurd yerinin məğrur, igid, oçaq sakinlərinin yaralarının qaysağını qoparmaram ki? Tez də bu fikri özümdən uzaqlaşdırdım. Çünki bu insanlar 24 ildir ki, düşmən qabağında dayanıblar, arabir atılan güllə səsləri onları zərrə qədər də qorxutmur. Çünki 18 yanvar döyüşlərini yaşayıblar. Bu gün arxalarında güclü bir dövlətin dayandığını görürlər.

Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri, uzun illər Sədərəkdə təhsil sahəsində fəaliyyət göstərmiş Teymur Quliyevin də ürəyi doludur:

– 24 il bundan əvvəl baş verənlər bir saatın, bir günün, bir ilin işi deyildi. Bu, uzun illər qonşuluq etdiyimiz namərdlərin bizə qarşı uzun illər hazırladıqları plan idi. Lakin arzuları gözlərində qaldı, istəklərinə nail ola bilmədilər. Ulu öndərimizin həmin illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Bu gündən sabaha ümidləri olmayan sədərəklilər də dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inandılar. Bu gün qovuşduğumuz bu işıqlı həyat tərzi məhz Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub... Bu işığın heç vaxt sönməyəcək ziyası bütün ölkəmizi daha xoş sabahlara aparır. Sədərəkdə bərqərar olunmuş sabitlik, sosial-iqtisadi inkişaf, insanların maddi-rifah halının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi bölgə sakinlərinin qurub-yaratmaq əzmini birə-beş artırıb. Onlar layiq olduqları səviyyədə yaşadıqları üçün dövlətimizə minnətdardırlar. İnanıram ki, bu sərhəd bölgəsində yaradılmış şəraiti 2014-cü ildə əsir qalmış torpaqlarımızda da görəcəyik.

96 yaşlı İsmayıl Heydərov rayonun ən yaşlı sakinlərindən biridir. Sədərəyə gəlişimizin və onunla görüşməyimizin səbəbini biləndə bir müddət fikrə getdi. Düşündüm ki, yəqin, o günləri xatırlayır. Fikrimdə yanılmamışdım:

– Unudulası günlər deyil, oğul. Heç unutmağa da haqqımız yoxdur. O günləri unutsaq, bugünkü gənclik həmin faciələrdən necə xəbər tutacaq? Bu faciələri gələcəyə kim çatdıracaq? Düzdür, nə qədər istəsən, kitab-dəftərdən o barədə öyrənə bilərsən. Ancaq biri var ki, gözünlə gördüyün, özün yaşadığın, hər an düşmən güllləsinə tuş gələ biləcəyin anları bugünkü nəslə başa salasan, bir də var ki, gənclər onu kitabdan oxuya. Bu gün Sədərək gəncləri bu ruhda böyüdürük. Onlar da rayonun hansı ərazidə yerləşdiyini görürlər. Lakin qorxu hissi onlardan uzaqdır. Çünki öz torpaqlarında yaşamağı, bu torpaqları qorumağı birinci dərəcəli vəzifələri hesab edirlər. 24 il bundan əvvəl bu torpaq uğrunda gedən döyüşlərdə şəhid olanların ruhu onların başı üstündədir. Üstəgəl, Sədərəyin bugünkü inkişafını görürlər. Hərtərəfli dövlət qayğısının böyük ərmağanları qədim yurd yerini müasir məkana çevirib. Və bu məkanı qorumaq vəzifəsi də onların üzərinə düşüb.

Sədərək kənd 1 nömrəli tam orta məktəbin direktoru Yaşar Hacıyev:

– Sədərək rayonunun sürətli inkişafı bu gün mənfur düşmənlərə ən böyük gözdağıdır. Burada son illərdə müasir tələblərə cavab verən onlarla ikimərtəbəli yaşayış evləri, rayonun idarə, müəssisə və təşkilatları üçün inzibati binalar tikilib. Yeni obyektlər Heydərabad qəsəbəsinin simasını tamamilə dəyişib. Rayonun Sədərək və Qaraağac kəndləri də bu gün müasirlik donundadırlar. Muxtar respublikanın ən böyük kənd yaşayış məntəqəsi olan Sədərək hərtərəfli dövlət qayğısı hesabına qəsəbə təsiri bağışlayır. Rayonun bir neçə idarə və təşkilatı bu kənddə fəaliyyət göstərir. Onlar üçün son illərdə müasir tələblərə cavab verən yeni tikililər inşa olunub. 2013-cü ildə quruculuq işləri davam etdirilib. Heydərabad qəsəbəsində 144 yerlik uşaq bağçası və seysmoloji stansiya, Sədərək kənd 1 nömrəli tam orta məktəbin binaları istifadəyə verilib. Bu günlə ötən 24 il arasındakı qısa zaman kəsiyi Sədərəyi tanınmaz dərəcədə dəyişdirib. Daha dəqiq desək, 1990-cı ilin Sədərəyindən əsər-əlamət qalmayıb. Necə deyərlər, bir vaxtlar güllələr düşən yerdə indi güllər bitir.

***<u>P.S.</u> Bizim gəldiyimiz qənaət: Doğrudan da, Sədərək rayonunda gözlə görünən hər şey dəyişib. Hər addımda yeniliklə rastlaşırsan. Müasir yaşayış binaları, sosial obyektlər, gülzarlıqlar rayona bənzərsiz gözəllik bəxş edib. Bütün bunlar isə sədərəklilərin həyat tərzini də kökündən dəyişdirib. Dəyişməyən insanların doğma yurd yerlərinə bağlılığıdır. Bu bağlılıq 24 il ərzində daha da güclənib. Bundan sonra da belə olacaq.***

✍ **Muxtar MƏMMƏDOV**

# Tariximizin qəhrəmanlıq salnaməsi

***20 Yanvar hadisələri xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna təcavüz cəhdi idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar hadisələri eyni zamanda tariximizin qəhrəmanlıq səhifəsidir.***

Biz 20 Yanvar tarixini milli matəm, hüzn günü kimi, həm də iftixar hissi ilə yad edirik. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu; Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra dahi rəhbərin təşəbbüsü ilə Azərbaycan tarixində Qanlı Yanvar faciəsi kimi yadda qalan 1990-cı il 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri araşdırıldı, 1994-cü ildə 20 Yanvar faciəsinə hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymət verildi.

20 Yanvar faciəsində şəhid olanların xatirəsini bu gün hörmətlə yad edərkən fəxrlə deyirik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq 22 il keçir. Müstəqil Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində öz yerini tutmuş və bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Bu gün 20 Yanvar, eləcə də Qarabağ müharibəsində şəhid olmuş Vətən övladlarının ailələri tam dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətin diqqətindədir. 1993-cü ildən üzü bəri 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Ulu öndərimizin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilmiş, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılmış və bu iş indi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir.

20 Yanvar şəhidlərinin rəşadəti həm də böyük mənəvi təsir qüvvəsinə malikdir. Bu faciə sovet imperiyasının Azərbaycan xalqına qarşı törətdiyi ağır təcavüz və cinayət olmaqla yanaşı, həm də Azərbaycanın milli azadlığı uğrunda xalqımızın qan yaddaşına qəhrəmanlıq təcəssümü kimi həkk edilmişdir. Bu qəhrəmanlıq salnaməsi gənclərimizin milli vətənpərvərlik ruhunda formalaşmasında böyük əhəmiyyət kəsb edir. Əgər xalqımızda yüksək vətənpərvərlik hissi olmasa idi, əliyalın yurddaşlarımız 1990-cı ilin 20 yanvar gecəsi sinələrini düşmən tankları önündə polad sipərə döndərməzdilər. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi M.Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz Vətən övladlarının qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Muxtar respublikamızda da hər il 20 Yanvar hadisələrinin ildönümü dərin ehtiramla qeyd edilir, igid övladlarımızın fədakarlığı bir daha xatırlanır, onların əziz xatirəsi yad olunur. Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində Vətən şəhidlərinə xatirə kompleksləri ucaldılmış, küçələrə, təhsil ocaqlarına onların adları verilmişdir. Bu gün Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanı naxçıvanlıların müqəddəs and yerinə, ziyarətgahına çevrilmişdir.

Doğma diyarımızda müharibə veteranlarının, şəhid ailələrinin və əlillərinin problemlərinin dövlət səviyyəsində həlli mühüm vəzifələrdən biridir. Muxtar respublikamızda hər il bu istiqamətdə böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatı da 20 Yanvar hadisələrinin və zaman-zaman xalqımıza qarşı törədilən ağlasığmaz cinayətlərin gənc nəslə çatdırılması, onlarda milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsi ilə bağlı tədbirlər təşkil edir, milli qəhrəmanlarımız və şəhidlərimiz gənclər arasında geniş təbliğ olunur.

20 Yanvar tarixi Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

**Məcid SEYİDOV**
***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının sədri***



# Qarabağlardakı türbənin sahibəsi kimdir?

Hunlardan sonra "köhnə dünya" (Avropa, Yaxın və Orta Şərq) Uzaq Şərqin gücünü bir də XIII əsrdə hiss etdi. Onlar Şərqdən Qərbə doğru ildırım sürəti ilə hərəkət edir, getdikcə daha böyük ərazilər "böyük güc"ün təsiri altına düşürdü. Dünya üzərində yeni bir fövqəlgüc – böyük monqol imperiyası doğulurdu. Onlardan əvvəl dünyaya hökm edənlər və onlardan sonra dünyaya hökm edəcəklər isə onların fövqəladə gücü qarşısında məğlub olduqlarını etiraf edə bilmədikləri üçün həsəd və paxıllıq dolu nəzərlərlə bu böyük imperiya sahiblərini "vəhşi" adlandıracaqdı; zaman ötdükcə "monqol-tatar" sözünü vəhşiliyin və barbarlığın sinonimi kimi dünyaya təlqin edəcəkdi. Zamanı kitablarda tutub saxlayan adamların bir çoxu isə ya bilərəkdən, ya da bilməyərəkdən bu anlayışı bir-birlərindən köçürə-köçürə onlara vəhşi monqol-tatarlar deyəcəkdilər. Bu iddianın sübutu isə o olacaqdı ki, birləşmiş monqol və tatar (türk) tayfaları tabe olmayanları məhv edir, onlara məxsus olanları yandırır, şəhərlərini və qalalarını yerlə-yeksan edirdilər. Amma bu zaman bir sual nədənsə hamının diqqətindən yayınırdı. Məgər assuriyalılar, urartulular, çinlilər, əhəmənilər, romalılar, makedoniyalılar, bizanslılar, lap elə ərəblər imperiyalarını dünyanın başına sığal çəkə-çəkəmi qurmuşdular? Yaxud da böyük monqol imperiyasının süqutundan sonra meydana çıxan fövqəldövlətlərin hansı işğal etdiyi ölkəyə gül-çiçəklə daxil olmuşdu ki? Bəlkə, bu gün bir ölkəni işğal edən hər hansı bir fövqəlgüc heç bir şəhəri dağıtmadan, insan tələfatına yol vermədən, hər hansı bir maddi-mədəniyyət abidəsini dağıtmadan istəyinə nail olur?

Fakt odur ki, dünyada fövqəldövlət olmağın, imperiya olmağın bir dəyişməyən qaydası var: gücü olduğunu göstərmədən, güc olduğuna inanmadan heç kəs sənə tabe deyil. Orta əsr reallığında isə Çingiz xan, əslində, sələflərinin (dünyadakı əvvəlki imperiyaların) etdiyini və xələflərinin (sonrakı imperiyaların) edəcəyini etmişdi. Bəli, monqol-tatar tayfaları onlara tabe olmayanları qətlə yetirmişdilər, şəhərlərini dağıtmışdılar, qalalarına od vurmuşdular. Lakin onlar dünya işlərindən bixəbər və əsrlər boyunca bizə təlqin olunduğu kimi vəhşi və barbar deyildilər. "Vəhşi"lərin YASASI (Qanunlar toplusu) olmur, vəhşi olanlar əmr və hökmlərini yerli xalqlara üç dildə (ərəb, fars və türk dillərində) çatdırmırlar və ən nəhayətində, vəhşi olanlar özlərindən sonra UNESKO-nun mədəni irs siyahısına düşməyə iddialı olacaq Qarabağlar – Qudi xatın türbəsi kimi bir memarlıq incisini yadigar qoymurlar. Ya da özlərindən daha əvvəl tikilmiş Möminə xatın, Yusif Küseyiroğlu türbələrinə toxunmadan keçmirlər. Hansı ki bu gün İrəvanda və Qarabağdakı həqiqi barbarlar və vəhşilər Azərbaycan mədəniyyətinə aid abidələri darmadağın edir, üzərlərindəki faktları saxtalaşdırırlar.

### *Monqollar gəlir, Naxçıvan müqavimət göstərir...*

Monqolların Azərbaycan ərazisinə hücumları ərəfəsində Naxçıvan Azərbaycanın əsas və inkişaf etmiş vilayətlərindən biri idi. Bu dövr üçün əsas tarixi mənbələrdən biri sayılan Həmdullah Qəzvininin məlumatlarına istinad etdikdə görürük ki, bu dövrdə nəinki indiki Naxçıvan ərazisində yerləşən şəhərlər, hətta Dvin şəhəri belə, Azərbaycan şəhərləri sırasında olmuşdur. Həmdullah Qəzvini yazırdı ki, Dvin şəhəri Azərbaycanın uzaq hüdudlarında yerləşir.

Şərqdən Qərbə doğru sel kimi gələn monqol-tatar tayfaları Naxçıvan ərazisində də xüsusi müqavimətə rast gəlirlər. Böyük və qüdrətli bir dövlətin – Atabəylərin xüsusi mülkü olan Naxçıvanın müqaviməti təbiidir. Tezliklə öz vətənlərinin iqlimi ilə bu torpaqların iqlimi arasında oxşarlıq görən monqollar və tatarlar öz dilləri ilə yerli əhalinin dili arasında bənzərliyi görüb, sözün əsl mənasında, buradakı aborigenlərlə dil tapa bilirlər. Məhz buna görə nəinki bu ərazilərdə məskunlaşır, hətta şəhərlərin yenidən abadlaşdırılmasında iştirak edirlər. Bu dövrdə inkişaf edən Naxçıvan şəhərləri sırasında Qarabağlar xüsusilə seçilirdi. İndiki Kəngərli rayonunun Qarabağlar kəndi ətrafında yerləşən ərazilərdəki mövcud toponimlər də məhz ərazidə monqollar dövründə sürətli məskunlaşmanın olduğunu sübut edir. Hətta elə olur ki, ən qüdrətli monqol ulusunun hökmdarlarından birinin həyat yoldaşı burda yaşayır, burda dəfn olunur və məzarı üzərində möhtəşəm bir memarlıq incisi ucaldılır.

### *Qarabağlardakı türbənin sahibəsi kim idi?*

Qarabağlar ərazisində bu günə qədər qorunub saxlanılan Qarabağlar türbəsi də məhz monqol-hülakülər dövründə tikilmişdir. Qarabağlar abidələri bir kompleks şəklində olub, buraya türbə, qoşa minarə və bu iki abidənin arasında yerləşən dini binanın qalıqları daxildir. Bu kompleksə daxil olan qoşa minarələrin XII əsrin axırlarında və ya XIII əsrin əvvəllərində tikildiyi güman edilir. Bu iki minarəni bir-birinə bağlayan portal quruluş isə XIV əsrə aid quruluşdur. Bu kiçik portalın üzərində Qudi (Kutuy) xatının adı oxunur. Qudi (Kutuy) xatının Hülakülər dövlətinin banisi Hülakü xanın həyat yoldaşı olması barədə fikirlər qəti olsa da, təəssüf ki, bəzi mənbələrə və internet resurslarına baxarkən onun səhvən Abaqa xanın həyat yoldaşı olduğunu bildirən yazıların da şahidi olduq. Hülakü hökmdarlarının ailələri haqqında "Cami ət-Təvarix" əsərində geniş məlumat verən Fəzlullah Rəşidəddinin məlumatları ilə tanış olarkən birmənalı şəkildə aydın oldu ki, Abaqa xanın Kutuy adlı həyat yoldaşı olmayıb. Hülakü xanın Kutuy xatın adlı həyat yoldaşı konkurat xalqının (tayfasının) nümayəndəsi olmuşdur. Əsərdə yazılır: "Daha bir həyat yoldaşı Kutuy xatındır, konkurat xalqının hökmdarlarının sümüyündən (şəcərəsindən – E.K.) olan .... qızı. Güyük xatın (Hüläkünün əvvəlki həyat yoldaşı – E.K.) Monqolustanda vəfat etdikdən sonra o, ona (Kutuy xatına – E.K.) elçi düşdü və onun (Güyük xatının – E.K.) yurd yerini ona verdi". Əsərin digər bir yerində isə müəllif əvvəllər xatının Monqolustanda məskunlaşdığı, sonradan isə buraya gətirildiyi haqda məlumat verir.

Abaqa xanın həyat yoldaşları haqqında məlumat verən müəllif yazır ki, onun həyat yoldaşlarından biri konkurat qəbiləsindən olan Mertey xatın olmuşdur. Mertey xatın Çingiz xanın qızının oğlu Musa Gürganın bacısı idi. Musanın anası isə Kutuy xatın idi.

Qeyd edək ki, Kutuy xatın vəfat etdiyi zaman Hülakülər dövlətində İslam hələ rəsmi din olaraq qəbul edilməsə də, Qarabağlar kəndindəki abidə üzərində ərəb dilində "Allah" kəlmələri və dini mətnlər həkk olunmuşdur. Bu isə onu göstərir ki, Kutuy xatın burda dəfn olunsa da, onun məzarı üstündəki türbə nisbətən sonrakı dövrdə tikilmiş və yaxud restavrasiya olunmuşdur. Tədqiqatçılar da qeyd edirlər ki, üslub və tikinti texnikası xüsusiyyətləri türbəni Əbu Səid Bahadur xanın hakimiyyəti illərinə (1319-1335-ci illər), minarələri isə XII əsrə aid etməyə imkan verir.

Hülakü xanın 14 oğlundan 2-ni Kutuy (Qudi) xatın dünyaya gətirmişdi. Bunlar xanın dördüncü oğlu Təkşin və yeddinci oğlu Əhməd Təkudər idi. Yeddinci oğul olan Əhməd Təkudər Abaqa xandan sonra Hülakülər dövlətində hakimiyyətdə olmuşdur.

Kutuy xatının mənsub olduğu konkurat (bəlkə də, "kəngərat") və yaxud konqoran tayfası ən iri tayfalardan biri olmuşdur. Çingiz xanın əcdadı olmuş və X yüzillikdə yaşadığı ehtimal edilən Bodonçar nəslinin davamı kimi bilinən qəbilələrdən olan konkuratlar monqolların özləri tərəfindən də təmiz monqol kimi qəbul edilməmişdilər. Bir çox tarixçilər isə hesab edirlər ki, bodonçar və onun nəsil davamçıları monqollar deyil, türklər olmuşlar. Beləliklə, doğma vətəndən uzaqlara hökmdar xatını kimi gələn Kutuy xatın burada məhz özü ilə bənzər dildə danışanlar arasında özünü vətənindəki kimi hiss etmiş və son mənzil olaraq da Naxçıvanı seçmişdi.

✍ Elnur KƏLBİZADƏ

# Şəhidlik zirvəsi

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsində 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş "Şəhidlik zirvəsi" mövzusunda konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Aybəniz Babayeva açaraq yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının törətdiyi qanlı cinayətlər nəticəsində xalqımızın başına gətirilmiş müsibətlər, baş verən qanlı qırğın barədə söz açmışdır. Qeyd olunmuşdur ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirmişdir. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni səhifə yazdılar.

Konfransda Zeynəddin Kənd Uşaq Musiqi Məktəbinin direktoru Hüseyn Qafarov, C.Məmmədquluzadə adına Xatirə Muzeyinin direktoru Akif Hacıyev, Cəhri Kənd Uşaq Musiqi Məktəbinin müəllimi Validə Hüseynova və başqaları çıxış edərək bildirmişlər ki, 20 Yanvar faciəsinin tariximizdə şərəfli yeri var və illər, əsrlər ötəcək, bu qanlı olayda canlarını qurban vermiş şəhidlərimiz heç zaman unudulmayacaq. Unudulmayan bir tarixi gerçəklik də ondan ibarətdir ki, bu hadisəyə siyasi-hüquqi qiyməti ümummilli lider Heydər Əliyev vermişdir. 20 Yanvar şəhidlərinin adlarının əbədiləşdirilməsi, onların ailələrinə və bu qanlı olayda sağlamlıqlarını itirmiş ailələrə dövlət qayğısı ulu öndərin daim diqqət mərkəzində olduğu kimi, bu gün Prezident cənab İlham Əliyevin də həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biridir.

Sonda Babək Rayon Xalq Teatrının üzvlərinin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

Xəbərlər şöbəsi

# "Araz-Naxçıvan" Premyer-Liqa komandasını məğlub etdi

***Futbol üzrə Azərbaycan I divizionunun ilk dövrəsini lider kimi başa vuran "Araz-Naxçıvan" futbol komandası ikinci dövrənin hazırlıqlarını Bakıda davam etdirir. Artıq muxtar respublika təmsilçisi paytaxtda yoxlama görüşü də keçirib. Dünən keçirilən yoldaşlıq görüşündə rəqib "Sumqayıt" futbol komandası olub. Premyer-Liqa təmsilçisi ilə matç Sumqayıtda keçirilib və komandamız güclü rəqibi qarşısında minimal hesabla qalib gələrək daha yaxşı hazırlaşdığını bir daha sübut edib.***

"Araz-Naxçıvan" komandası Premyer-Liqa təmsilçisi qarşısına fərqli heyətlə çıxmışdı. Belə ki, baş məşqçi Əsgər Abdullayev qapını Rəşad Heydərov, müdafiə xəttini isə Ruslan Abıyev, Ruslan Zümrüdov, Əlimirzə Daşzərini və Cavid Həsənova həvalə etmişdi. Eşqin Quliyevin kapitan kimi çıxdığı matçda yarımmüdafiə xətti onunla yanaşı, Azər Məmmədov və Elmin Çobanova tapşırılmışdı. Bəxtiyar Soltanov və Əziz Hüseynovla cinahlardan hücum quran qırmızı-ağlar sivri ucda İrfan Yuseynova bel bağlamışdılar. "Sumqayıt" isə Premyer-Liqa oyunlarında olduğu kimi, yenə də meydana daha çox gənc və perspektivli oyunçuları buraxmışdı ki, bu futbolçuların da əksəriyyəti hazırda Azərbaycan millisinin şərəfini qoruyurlar.



"Araz-Naxçıvan" oyuna sürətli başladı. Elə ilk təhlükəli vəziyyəti də muxtar respublika təmsilçisi yaratdı. Belə ki, sağ cinahdan edilən asmaya hamıdan tez yetişən İrfan Yuseynovun zərbəsini müdafiəçilər son anda qapıdan uzaqlaşdırdılar. Bir epizodda isə qapıçımız Rəşad Heydərovun inamlı oyunu diqqətdən yayınmadı. Onun mükəmməl reaksiyasından sonra rəqib qola sevinə bilmədi. İlk hissə daha çox kəşfiyyat xarakterli oldu. Buna görə komandalar bir qədər ehtiyatla oynamağa üstünlük verdilər.

İkinci hissəyə "Araz-Naxçıvan" əvəzetmələrlə başladı. Belə ki, komandanın qol "silahı" David Canıyevlə yanaşı, Tərlan Xəlilov və Fərman Qəmbərov meydana daxil oldular. Həmçinin baş məşqçi oyunun gedişatında taktika dəyişikliyinə də əl atdı. İ. Yuseynovu sol cinaha çəkən Əsgər Abdullayev sivri ucu David Canıyevə həvalə etdi. Daha çox sürəti ilə seçilən İ. Yuseynov sol cinahdan uzun reyd edərək cərimə meydançasına daxil oldu, ancaq onun zərbəsini qapıçı dəf edə bildi. Az sonra İrfan adını tabloya yazdıra bilərdi. Di gəl ki, onun sağ cinahdan qüvvətli zərbə ilə vurduğu top qapıdan aralı keçdi. Ardıcıl hücumlar təşkil edən "Araz-Naxçıvan" istəyinə matçın sonuna 10 dəqiqə qalmış nail oldu. Belə ki, İrfan Yuseynovun ötürməsindən sonra cərimə meydançasına daxil olan David Canıyevə qarşı rəqib müdafiəçilər kobud oynadılar. Bu məqam isə hakimin diqqətindən yayınmadı. 11 metrlik ağ nöqtəni göstərən referinin bu qərarına rəqib futbolçular da etiraz etmədi. Üstəlik, onlar kobudluğa yol verən futbolçularına öz etirazlarını bildirdilər. Topa yaxınlaşan David Canıyev isə 2014-cü ildə komandamızın heyətində ilk qolunu vurdu – 0:1. Bundan sonra rəqibin, həmçinin Naxçıvan təmsilçisinin hücumlar təşkil etməsinə baxmayaraq, tablodakı hesab dəyişməz olaraq qaldı. Bununla da, "Araz-Naxçıvan" cari ildə ilk qələbəsini qazandı.

✍ Ceyhun MƏMMƏDOV

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Şükür Quluzadəyə, əzizi **ELMAN QƏNBƏROVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Mərkəzi Aparatının əməkdaşları iş yoldaşları Jalə İbrahimovaya, nənəsi **ZİNYƏT XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin baş həkimi Abasət Hüseynəliyev və mərkəzin kollektivi Ofelya və Xuraman Hacızadələrə, əzizləri **SƏBUHİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi Fəxrəddin Cəfərov və idarənin kollektivi iş yoldaşları Zülfiyyə İsmayılovaya, anası **ZİNYƏT XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi Ofelya və Xuraman Hacızadələrə, əzizləri **SƏBUHİNİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Fizzə Məmmədovaya, əzizi **ELMANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva və şöbənin kollektivi iş yoldaşları Aydın Məmmədliyə, qardaşı **OQTAYIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun Təbiət və incəsənət fakültəsinin dekanı İsa Əliyev və fakültənin əməkdaşları iş yoldaşları Miryasin Eminova, əzizi **ƏLİ ƏLİYEVİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Elnur Kəlbizadə
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 52